# ƏDALƏT TAHİRZADƏ ƏRMƏĞANI

# 70

ÇAPAR
YAYINLARI

Naşir:
**Yusif İLHAMOĞLU**

Tərtib edən:
**Dilqəm ƏHMƏD**

Səhifələyici dizayner:
**Bəxtiyar ƏLƏKBƏROV**

Üz qabığının dizayneri:
**Rəsul HƏSƏN**

**© Ədalət TAHİRZADƏ Ərməğanı 70**

**© Çapar Yayınları**

Bakı–2021. 400 səh.

Professor Ədalət Tahirzadənin 70 illik yubileyi münasibətilə nəşr olunan kitaba alimin qələm yoldaşlarının, dostlarının xatirə xarakterli yazıları, elmi məqalələri daxil edilib. Müəlliflər nəşriyyat tərəfindən seçilib, kitab yubilyarın iştirakı olmadan işıq üzü görüb. Məqalələr hər iki bölümdə müəlliflərin soyadlarının əlifba sırasına uyğun şəkildə verilib.

# İÇİNDƏKİLƏR

## TƏBRİKLƏR, XATİRƏLƏR


Ramiz Abutalıbov. Təbrik..... ........................................................... 5

Yavuz Akpınar. Adalet Tahirzade Armağanına................................ 8

Aydın Balayev. Sovetin rəsmi ideologiyasına meydan oxuyan insan. ................................................................................... 10

Ənvər Çingizoğlu. Ədalət Tahirzadə: Həqiqəti dostluqdan uca tutan adam. .................................................................. 14

Hikmət Əbdülhəlimov. Adı ilə əməlləri üst-üstə düşən insan. ........................................................................ 16

Dilqəm Əhməd. Tələbələrin şəklini başının üzərindən asan müəllim........................................................................................ 23

Fethi Gedikli. Benim Tanıdığım Adalet Tahirzade............................ 34

Şirməmməd Hüseynov. Bu günün tarixini Ədalət bəy yazır........... 37

Yusif İlhamoğlu. Böyüklüyün və təvazönün təntənəsi.. .................. 39

Əsgər Quliyev. Görkəmli tədqiqatçı-alim, tanınmış ziyalı. ............. 42

Misir Mərdanov. Vətən elminə xidmət arzusunun gücü.. ............... 48

Ramiz Rövşən. O yer Ədalət müəllimsiz boş olardı. ........................ 60

Mina Tansel. Adalet Muallim. ............................................................ 61

Bəxtiyar Vahabzadə. Onun kitabı yaxın tariximizin aynasıdır......... 63

Mehriban Vəzir. Bütün yaxşı sözlərə layiqdir.................................... 64

Bəhram Zeynalov. Gözəl dost, dəyərli alim, əsl mücahid................ 65


## MƏQALƏLƏR


Yavuz Akpınar. Azerbaycanlı Celal Ünsî'nin Türkiye'deki Hayatı ve Gazeteciliği.................................................................... 69

Seyfettin Altaylı. Sîret Eserlerine Gazelin Girişi Ve Hasanoğlu'nun Kitāb-ı Sîrrrü'n-Nebi Eserindeki Gazeller ........................................ 98

Fərhad Cabbarov. Hacı Zeynalabdin Tağıyevin sahibkarlıq fəaliyyətinin ilkin dönəmləri haqqında ............................................ 131

Turan Can. Tarih Boyunca Türklerde Kadın ve Aile.... .................... 147

Nazir Əhmədli. Əbülfəz Elçibəyin şəcərəsi.... .................................. 179

Firdovsiyyə Əhmədova. Azərbaycanın müqəddəratı
milli məsələnin həlli təcrübəsində...................................................... 196

Mehdi Gəncəli. "Nəşri-maarif" cəmiyyəti. ........................................ 215

Cavid İsmayıl. Bəy təkcə kinolarda olmur.. ....................................... 220

Eldar İsmayılov. Fransa azərbaycanlıları: M.F.Axundovun və
H.Z.Tağıyevin Qacarlar nəslindən olan nəvə-nəticələri. .................. 227

Şahnaz Kamal. XIX-XX əsrlərdə Sankt-Peterburqda yaşamış
qarabağlılar ........................................................................................... 244

Əsgər Quliyev. Əli bəy Hüseynzadə fenomeni:
Türkçülüyün atası və böyük maarifçi ................................................. 257

Tohid Məlikzadə. Kəsrəvinin çıxartdığı azəri
dilinin ifşasında Ədalət Tahirzadənin rolu. ....................................... 278

Elmira Məmmədova – Kekeç. Cəfər Cabbarlı
yaradıcılığında İran mövzusu. ............................................................ 284

Namiq Musalı. İranın turanlıları:
Qacarlar sülaləsində etnik özünüdərk problemləri. ......................... 300

Nəsib Nəsibli. Tarixi qəhrəmanlarımız məsələsi. .............................. 323

Ömer Özcan. Mehmet Emin Resulzade'ye
gönderilen beş mektup.......................................................................... 339

Əli Şamil. Nədən Batı Sibir Türk Cümhuriyyəti
qurmaq istəyənlər cəzalandırıldılar... ................................................. 358

***Ramiz ABUTALIBOV***
*1–ci dərəcəli müşavir-diplomat*

# TƏBRİK

Çox hörmətli xalqımızın layiqli ziyalısı, əziz dostum, Ədalət müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Əlbəttə, dünyaya göz açan hər bir insanın həyat yolu, ömür tarixi var. Bu tarixin də məzmunu o insanın keçdiyi ömür yoludur – xalqına, millətinə xidmətdir, başqalarına qarşı münasibətidir, işidir, əməlidir, həyatda saldığı izdir.

Ədalət müəllim! Siz şərəf və ləyaqətlə yaşamış, Vətənimizə, xalqımıza sədaqətlə xidmət etmiş ziyalımızsınız. Sizin yüksək professionallıqla həyata keçirdiyiniz jurnalist fəaliyyətiniz, respublikamızın ictimai və siyasi həyatının aktual məsəslələri ilə bağlı fəaliyyətiniz təqdirəlayiqdir. Əsərlərinizin xalqımızın tarixi, ədəbi, mədəni və ictimai-siyasi həyatında özünəməxsus yeri var. Keçdiyiniz keşməkeşli həyat yolu çox zəngin və maraqlıdır. Bir tarixçi jurnalist və şəxsiyyət kimi keçdiyiniz şərəfli həyat yolu gənc nəsil üçün parlaq nümunədir.

Siz harada çalışmısınızsa, həmişə öz xeyirxahlığınızla, peşəkar dəst-xəttinizlə seçilmisiniz. “Ay-Ulduz” nəşriyyatının direktoru, “Məşvərət” bülleteninin redaktor müavini, elmi-pedaqoji “Düşüncə” dərgisinin baş redaktoru işləmisiniz. “Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri” toplusunun məsul redaktoru olmusunuz. Siz 22 kitabın, 470-dən artıq elmi, elmi-kütləvi və publisist yazının müəllifisiniz. Hacı İsmayıl bəy Qutqaşınlı, Haşım bəy Vəzirov, Salman Mümtaz, Məşədi Azər Buzovnalı, Rəşid bəy Əfəndizadə, Mirabbas Mirbağırzadə, Məhəmmədəmin Dərğazadə kimi Azərbaycan klassiklərinin

xalqımıza bəlli olmayan bir çox əsərlərini üzə çıxararaq onları ərəb qrafikasından latın qrafikasına çevirib və ilk dəfə nəşr etdirmisiniz.

Sizin "Uşaq ensiklopediyası", "Azərbaycan Ensiklopediyası"", "Diplomatiya: ensiklopedik lüğət", "Diplomatiya"da çoxsaylı məqalələriniz dərc edilib.

1930-cu illərdə haqsız repressiyanın qurbanı olmuş və adları unudulmuş çoxlu Azərbaycan ziyalısını, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvlərinin, Cümhuriyyətin xaricə oxumağa göndərdiyi tələbələrin taleyinə biganə qalmadınız. İlk dəfə onların tərcümeyi-hallarını araşdırıb Azərbaycanda və bir sıra xarici ölkələrin mətbuatında geniş məqalələr dərc elətdirdiniz. Tarixi sənətlərin toplanması, tədqiqi və nəşri işini böyük həssaslıq və tələbkarlıqla gerçəkləşdirdiniz. "Azadlıq" qəzetindəki fəaliyyətiniz, çəkdiyiniz zəhmət, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayıb.

Ədalət müəllim, siz bir çox orijinal keyfiyyətləriniz ilə həmişə sizi əhatə edənlərin diqqət mərkəzində oldunuz, sizi tanıyanlar tərəfindən seçilib sevildiniz.

Bir görkəmli tədqiqatçı alim kimi öz həyat və yaradıcılığınızı, şəxsiyyət və fəaliyyətinizi elmə, tariximizə, imzaları geniş surətdə ictimaiyyətə məlum olmayan insanlara həsr etdiniz. Zəhmətinizə görə vətənpərvər insanlarımız və ziyalılar, arasında böyük hörmət qazandınız. Sizin bu insansevərliyiniz və mehribanlığınız Sizi həmkarlarınız və sizi tanıyanların sevimli dostuna və əziz adamına çevirib. Siz  sözçülüyü sevməyən, az sözlə böyük mətləblərdən söz açan ziyalılarımızdansınız. Bunu sizin əsərlərinizdə də görmək olur.

Sizə qalan ömür payını da mənalı keçirməyi, xalqımıza həmişəki kimi vicdanla xidmət etməyi arzulayıram.

Bu əlamətdar doğum günü-yubileyi münasibəti ilə bir daha ürəkdən təbrik edir, sizə yaradıcılığınızda, siyasi fəaliyyətinizdə növbəti nailiyyətlər, müvəffəqiyyətlər, şəxsi-ailə

həyatında daim gözəlliklər arzu edirəm. Doğum gününüz və yubileyiniz mübarək olsun, çox əziz və dəyərli dostum!

Ömrün bu mübarək bir çağında – yetmiş illik yubiley bayramında bu böyük vətənpərvər və gözəl insanı bağrıma basmaqdan məmnunluq duyuram. Yeni-yeni yubiley bayramlarında görüşmək arzusu ilə!

*Moskva, 8 aprel 2021-ci il*

*Yavuz AKPINAR,*
*Professor*

# ADALET TAHİRZADE ARMAĞANINA

Muhterem Adalet Bey,

Sizi 70. Yaşınıza ayak basmanız münasebetiyle yürekten kutluyor, daha nice yıllar sağlık, mutluluk dolu bir yaşam diliyorum. Dostlarınızın hazırladığı armağan kitabına, bana da hakkınızdaki düşüncelerimi ifade etme imkanı verildiği için son derecede memnun oldum.

Adalet Bey, ben sizi her şeyden önce dürüst, dostlarına ve dostluğa değer veren, sözüne güvenilir, yardım sever bir insan olarak tanıdım. Yıllar boyunca araştırdığı, elde ettiği bilgi ve belgeleri dostları talep edince hiç duraksamadan onları dostlarının kullanımına sunan sahavetli bir insan olarak gördüm, tanıdım. Benim Resulzade, Gaspıralı ve Celal Ünsi (veya Ünsizadeler) hakkındaki araştırmalarımda, önüme çıkan birçok müşkilatı çözmeme yardım ettiniz, birçok belgeyi kendiniz kullanabilecekken bana gönderdiniz. Bu alicenaplık, sahavet değil de nedir? Sağ olunuz, size müteşekkirim.

Bana yazdığınız bir mektubunuzda "artık dilciliği bıraktım, Azerbaycan'ın yakın tarihiyle ilgilenmeye başladım" demiştiniz. Bu karar, sizin millet ve vatan sevginizin, halkınıza karşı duyduğunuz sorumluluk duygusunun tabii bir sonucu idi. Azerbaycan son yüzyıl içinde çok felaketler görmüş, çeşitli sebeplerle yakın tarihine yabancılaşmış, sahte ideolojilerin tesiri altında kalmıştı. Siz bir milliyetçi olarak tarihi, siyasi konulara yönelerek halkınıza başından geçenleri doğru bir şekilde anlatmak, ona kendi yolunu göstermek için büyük gayret sarf ettiniz. Özellikle Azerbaycan Halk Hareketini, Azadlık Meydanındaki varlık-yokluk kavgasını, Sovyetler Birliği'ni sarsan

o müthiş ayaklanmayı tümüyle kavrayan, açıklayan eşsiz bir eser yazma sabrını ve cesaretini gösterdiniz. 1918'de Azerbaycan Cumhuriyetini kuran aydınların, siyasetçilerin biyografilerini büyük zahmetlere katlanarak yazdınız. Bu hükümetin, Azerbaycan'ın geleceğini düşünerek dış ülkelere gönderdiği öğrencilerin talihsiz kaderlerini, karşınıza çıkan bin bir müşkülata rağmen, iğneyle kuyu kazarcasına emek sarf ederek açığa çıkardınız ve milletinize hediye ettiniz. Azerbaycan-Türkiye ilişkilerinin unutulmuş, karanlığa gömülmüş birçok safhasını aydınlığa kavuşturdunuz.

Başka araştırmalarınızı söylemeye gerek yok, özetleyerek, ana hatlarıyla ifade etmeye çalıştığım bu eserler bile size millet nazarında büyük bir itibar kazandırmıştır, diye düşünüyorum. Bununla iftihar etmelisiniz. Her aydın sizin gibi lekesiz bir itibar kazanamaz.

Ne mutlu size, ne mutlu sizin gibi bir aydını tanımak şansını yakalayanlara!

*İzmir, 1-5-2021*

*Aydın BALAYEV,*
*Tarix elmləri doktoru*

# SOVETİN RƏSMİ İDEOLOGİYASINA MEYDAN OXUYAN İNSAN

Ədalət Tahirzadə ilə ilk tanışlığım Azərbaycan Elmlər Akademiyasında fəaliyyətə başladığım 1982-ci ilin başlanğıcına təsadüf edir. Bu gün çoxlarına bir qədər qəribə görünsə də, o zaman Elmlər Akademiyasında indikindən tam fərqli mühit və ab-hava hökm sürürdü. Belə ki, bizim günlərdə Elmlər Akademiyasının əməkdaşları iş gününü, əsasən, çay içib, dedi-qodu və qeybətlərlə yola verməklə məşğuldurlarsa, qırx il əvvəl bu binaya qədəm qoyanlar başqa mənzərənin şahidi olardılar. Çünki müxtəlif elmi problemlərin müzakirə predmeti olduğu qızğın mübahisələr yalnız şöbə və Elmi Şura iclaslarında deyil, çox vaxt elə Elmlər Akademiyasının koridorlarında aparılırdı. Bu mübahisələrin ən fəal iştirakçıları isə təbii ki, gənclər idi. Ədalət bəylə də Dilçilik İnstitutunun yerləşdiyi 5-ci mərtəbədəki belə mübahisələrdən birinin gedişində tanış olmuşam.

Sonradan Ə.Tahirzadə ilə daha isti münasibətlərimizin yaranmasında isə namizədlik dissertasiyamın mövzusunun etnolinqvistikadan olması önəmli rol oynadı. Etnoqrafiya ilə dilçiliyin sərhədində yerləşən və yenicə formalaşmağa başlayan bu yeni elm sahəsi üzrə mütəxəssislər Azərbaycanda, demək olar ki, yox dərəcəsində idi. Bu səbəbdən də, məsləhətləşmək və fikir mübadiləsi aparmaq üçün istər-istəməz yaxın sahələrin mütəxəssislərinə, ilk növbədə dilçilərə müraciət etmək lazım gəlirdi. Həmin dönəmdə dəyərli məsləhətlərindən yararlandığım şəxslərdən biri də məhz Ədalət bəy idi.

Bu səbəbdən, rus çarizminin XIX əsrdə Azərbaycanda həyata keçirdiyi dil siyasətinin xüsusiyyətləri və bu dövrdə Azərbaycan türkcəsindən Cənubi Qafqazın əksər hissəsində millətlərarası ünsiyyət vasitəsi kimi istifadə olunmasından bəhs edən ilk elmi məqaləmin rəyçilərindən birinin Ə.Tahirzadə olması da təsadüfi deyildi. Rəyin yazılması prosesində mən ilk dəfə olaraq sözün yaxşı mənasında Ədalət bəyə xas olan alman pedantizminin şahidi oldum. O, başqalarının çox vaxt önəm vermədiyi ən xırda qüsurların belə aradan qaldırılmasını israrla tələb edirdi və yalnız sonuncu düzəliş edildikdən sonra rəyi imzaladı. Üstündən onilliklər keçməsinə baxmayaraq, Ədalət bəy bu gün də gördüyü hər bir işə, onun miqyas və önəmindən asılı olmayaraq, eyni məsuliyyət və tələbkarlıqla yanaşır.

Ə.Tahirzadənin elmi yaradıcılığından danışarkən, onun 80-ci illərin başlanğıcında qələmə aldığı və üzdəniraq kəsrəviçilik ideologiyasının ifşasına həsr olunmuş əsərini qeyd etməmək mümkünsüzdür. İlk dəfə 1984-cü ildə unudulmaz Aydın Məmmədovun redaktəsi ilə dərc olunan "Azərbaycan filologiyası məsələləri" toplusunun 2-ci cildində "Kəsrəviçilik: kökü, özəyi, ardıcılları, dirildilməsi" adı altında işıq üzü görən bu əsər həmin vaxt aydın səmada qəfil çaxan ildırım effekti vermişdi. Bu əsərin yazılması o zaman müəllifdən sözün birbaşa mənasında böyük cəsarət tələb edirdi. Çünki bu yazısı ilə Ədalət bəy faktiki olaraq rəsmi ideologiyaya meydan oxuyurdu.

Nəzərə almaq lazımdır ki, sovet rejimi bütün 70 illik hökmranlığı dövründə azərbaycanlılarla türklər arasında hər hansı bir genetik əlaqənin olmadığını sübut etmək və onlar arasında uçurum yaratmaq məqsədilə dəridən-qabıqdan çıxırdı. Bunun üçün sovet təbliğatı bütün vasitələrdən, o cümlədən azərbaycanlıların türk mənşəli olduğunu inkar edən və onların türkləşmiş farslardan başqa bir şey olmadığını isbatlamağa çalışan Kəsrəvi

"nəzəriyyə"sindən də yararlanmağa çalışırdı. Azərbaycanda kəsrəviçiliyin ən qızğın tərəfdarı isə azərbaycanlıların etnogenezi problemini öz inhisarı hesab edən Tarix İnstitutunun o zamankı rəhbəri İqrar Əliyev idi. Sonuncu, azərbaycanlıların türk mənşəli olması fikrini yaxına belə buraxmayaraq, bunu "pantürkizmin təzahürü" və "sovet hakimiyyətinin ideoloji düşmənlərinin uydurması" sayırdı. Belə bir dönəmdə Ə.Tahirzadənin tutarlı tarixi faktlarla kəsrəviçiliyi darmadağın etməsi və bu "nəzəriyyə"-nin heç bir elmi əsası olmayan cəfəngiyyatdan başqa bir şey olmadığını isbatlaması təkcə iqrar əliyevlərə deyil, həm də rəsmi təbliğata vurulmuş tərs şapalaq idi.

Ə.Tahirzadə ilə daha sıx işbirliyimiz isə 1987-ci ilə təsadüf edir. Həmin vaxt mən artıq Moskvada SSRİ EA-nın Etnoqrafiya İnstitutunun əyani aspiranturasında təhsil alır, Ədalət bəy isə Aydın Məmmədovun yeni yaratdığı şöbədə çalışırdı. Bu şöbənin maraqlı layihələrindən biri respublikada etno-dil proseslərini tədqiq etmək məqsədilə Azərbaycanda məskunlaşmış müxtəlif xalqların nümayəndələri arasında genişmiqyaslı sorğunun keçirilməsi idi. Uzun çalışmalardan sonra Ədalət bəyin birbaşa rəhbərliyi altında sorğu vərəqi hazırlandı və hətta böyük tirajla çap da olundu. Lakin təəssüflər olsun ki, 1988-ci ilin fevralında başlanan Qarabağ hadisələri bir çox planlarımız kimi, bu layihənin də gerçəkləşməsinə imkan vermədi.

Bu dönəmdə Elmlər Akademiyasının əksər əməkdaşları kimi Ədalət bəy də elmi fəaliyyətinə fasilə verərək, alovlanmaqda olan xalq hərəkatının ən fəal üzvlərindən birinə çevrildi. Xüsusi olaraq vurğulamalıyıq ki, 70 illik fasilədən sonra Azərbaycanın ilk müstəqil mətbu orqanı olan "Azadlıq" qəzetinin redaktor müavini kimi Ədalət bəy dövlət müstəqilliyimizin bərpasına öz sanballı töhfəsini verdi. 1992-1993-cü illərdə təhsil nazirinin müavini olarkən ölkənin gələcək taleyi üçün bu çox önəmli sahənin tamamilə fərqli prinsiplər əsasında yenidən qurulması

prosesinin təkanvericilərindən biri oldu. Bu baxımdan, belə bir məqamı xüsusilə qeyd etməliyik ki, sovet dövrünün ideoloji yükündən azad ilk milli dərsliklərimizin hazırlanması təşəbbüskarı və bu sahəyə rəhbərlik edən də məhz Ədalət Tahirzadə oldu. Təəssüf ki, sonradan ölkədə baş verən siyasi təbəddülatlar Ədalət bəyə bu işi başa çatdırmağa imkan vermədi.

Şadam ki, 90-cı illərdəki müəyyən fasilədən sonra Ədalət bəy yenidən elm sahəsinə qayıtdı və son 20 ildə bir çox sanballı əsərləri ilə bizi sevindirdi və bu gün bu istiqamətdəki məhsuldar fəaliyyətini davam etdirir. Qarşıda isə görüləsi işlər hələ yetərincədir. Ömrünün kamillik çağını yaşayan Ədalət bəyə tariximizin hələ də qaranlıq qalan səhifələrinin işıqlandırılması kimi çətin, lakin şərəfli fəaliyyətində yeni-yeni uğurlar arzulayıram. Əminəm ki, Ədalət bəy bizləri hələ neçə-neçə yeni və sanballı əsərlərlə sevindirəcəkdir.

*Ənvər ÇİNGİZOĞLU,*
*Jurnalist-etnoqraf, əməkdar mədəniyyət işçisi*

# ƏDALƏT TAHİRZADƏ: HƏQİQƏTİ DOSTLUQDAN UCA TUTAN ADAM

Ədalət Tahirzadə ilə dostluğumuzun binası, bünövrəsi milli arxivdə qoyulub. Onun zəhmətkeşliyinə, axtarış bacarığına orda tanıq olmuşam. Get-gedə dostluğumuz dərinləşdikcə xasiyyətinə hərtərəfli bələd olmuşam. Mənə bəlli olan yaşam və yaradıcılıq yolunu sizə də nişan verim.

Ədalət Tahirzadənin elmi yaradıcılığı çoxşaxəlidir. O, sözə sığmayacaq qədər işgüzardır.

Onun bir amalı var - sənətinin ləyaqətli təmsilçisi olmağa borclusan.

Qeyd edim ki, yüksək mənəvi, əxlaqi, intellektual səviyyəyə malik ziyalıların əməlləri, yaradıcılıqları müasirləri, tanışları üçün həmişə örnək olur. Ədalət müəllim də ətrafdakılara örnək ola biləcək belə şərəfli ömür sahibidir. Dəyərli alim olmaqla yanaşı, o, həm də öz sözünü deməyi bacaran fəal ziyalılarımızdandır. Harada olmasından asılı olmayaraq Ədalət müəllim hər zaman azərbaycançılığı, öz vətəndaş mövqeyini yüksək səviyyədə nümayiş etdirir.

Sanballı monoqrafiyaların, populyar dərsliklərin və maraqlı elmi axtarışların müəllifi olan Ədalət müəllimin elmi yaradıcılığı ölkə ictimaiyyətinə yaxşı tanışdır. Mən onun elmi, pedaqoji fəaliyyəti ilə yanaşı insani keyfiyyətlərindən danışmaq istəyirəm. Çox alim kitab yazıb, elmi tədqiqat aparıb. Lakin etiraf olunmalıdır ki, bu elmi tədqiqatların heç biri elmi-nəzəri səviyyəsinə, praktik məzmun yükünə, faktoloji əhəmiyyətinə, aktuallığına və sanbalına görə Ədalət Tahirzadənin yüksək peşəkarlıqla qələmə aldığı əsərlərlə müqayisəyə gəlmir.

Ədalət Tahirzadə keçdiyi zəngin və şərəfli həyat yolunun bütün dövrlərində canından çox sevdiyi Azərbaycanın milli maraqlarını və milli dəyərlərini hər şeydən üstün tutaraq, istər elmi-pedaqoji, istərsə də ictimai-siyasi sahədəki fəaliyyətində öz həyat salnaməsinin parlaq səhifələrini yaratmışdır.

Elçibəy şəxsiyyətinin və ideyalarının müdafiəsinə qalxan insanların ön sıralarında dayanan ziyalılardan biri olaraq Ədalət Tahirzadənin bu sahədə də müstəsna xidmətləri danılmazdır. Qorxmadan, çəkinmədən Elçibəyi müdafiə etmiş, yaşam və yaradıcılıq yoluna tükənməz qələmlə işıq tutmuşdur. Hər zaman onun elmi-siyasi irsinin öyrənilməsi və təbliğində yüksək fəallıq göstərmişdir.

Respublikamızın ictimai-siyasi həyatının fəal iştirakçısı olaraq Ədalət Tahirzadə vətənini, dövlətini, xalqını sevən və onlara son dərəcə bağlı olan əqidəli və sədaqətli bir ictimai-siyasi xadim, daim düzgünlüyün və haqqın tərəfində yer alan ədalətli və vicdanlı bir insan, müxtəlif səpkili problemləri hər zaman diqqət mərkəzində saxlayan, bu problemlərdən çıxış yolları axtarmağa və xalqı maarifləndirməyə çalışan ziyalı, yaradıcı bir alim, istənilən vaxt əməkdaşlığa, dialoqa açıq olan və digər müsbət keyfiyyətləri özündə cəmləşdirən bütöv bir şəxsiyyətdir.

Nəticə olaraq deməliyəm ki, insan həyatının mənası onun xalqa, Vətənə xidməti ilə ölçülür. Neçə il ömür sürürsənsə sür, əgər tərəqqiyə xidmət edə biləcək bir iş görmüsənsə, deməli, yaşadığın ömür hədər getməmişdir.

Bir xəbərdarlıq edim: İstər dostu ol, istərsə də ən əziz adamı. Ədalət Tahirzadə həqiqəti hər şeydən üstün tutacaq. Kiməsə üzgörənlik etməyəcək. Onunla ünsiyyət quranda səhv etməkdən çəkinin, bağışlamaqda əli yoxdur. Əvəzində çox əliaçıqdır. Comərd kimi. Səxavəti də, ibadəti də eynidir.

Ədalət Tahirzadə yetmişinə yetib. Hələ də gənclik şövqi ilə işləyir. İşdən qalma, əziz dost!

*Hikmət* **ƏBDÜLHƏLİMOV,**
*Folklorşünas, etnoqraf*

# ADI İLƏ ƏMƏLLƏRİ ÜST-ÜSTƏ DÜŞƏN İNSAN

***Ey insan! Sən Allahın oxunmamış bir kitabısan.***
*Həzrəti Mövlanə Cəlaləddin Rumi*

Nə vaxtsa müqəddəs səmavi kitabların birində oxumuşdum ki, uşaqlarınıza gözəl adlar qoyun, ad sonralar insanın taleyində mühüm rol oynayır. Biz yaşadığımız həyat boyu bunun canlı şahidi oluruq, lakin sirrini açmayan dünyada bu da bir sirr olaraq qalır...

Ədalət – insaf, mürüvvət, haqq və düzgünlük prinsiplərinə riayət və daha geniş mənada işlədilən müqəddəslik səviyyəsində insanların sitayiş etdikləri çəkisi ağır, mənası dəryalardan dərin bir sözdür. Əgər bu sözü öz adı kimi gəzdirən insan ona layiq bir ömür yaşayırsa, adı ilə xarakteri üst-üstə düşürsə, o elə dünyanın da, insanların da naxşıdır! Ələlxüsus da, bu insan sənin səmimi dostundursa, sən onun timsalında sifət fərqi ola biləcək elə özünü görürsənsə, bu da bir naxışdır!

Haqqında söhbət açacağım İNSANLA – filologiya üzrə fəlsəfə doktoru, Bakı Avrasiya Universitetinin professoru Ədalət Tahirzadə ilə məni büllur kimi təmiz, prinsipial, ədalət və həqiqət vurğunu, sayılıb-seçilən milli aydınlarımızdan olan dostum İsmayıl Sadıqov (Calallı) tanış etdi. İlk görüşdən ortaboy, sağlam bədənli, nurani sifətli, az danışıb çox dinləməyə meyilli, yüksək ədəb-ərkan sahibi kimi diqqətimi cəlb edən bu İNSANIN hər sözü, hər kəlməsi yerli-yerində idi, tərəf-müqabilinə göstərdiyi diqqət və hörmət də öz yerində... O vaxtdan